# Sözümüzü bundan sonra deyəcəyik

**Müsahibimiz Neftçala Uşaq İncəsənət məktəbinin direktoru Əlisahib Əsgərovdur. Tanışlıq üçün qeyd edək ki, Əlisahib müəllim Bakı Mədəni-maarif texnikumunun xalq çalğı alətləri orkestri fakültəsini bitirib. Ordu sıralarında xidmətdən qayıtdıqdan sonra Neftçalada avtoklub müdiri işləyib.**

Təhsilini artırmaq üçün İncəsənət İnstitunun (ADMİU) mədəni-maarif fakültəsinə üz tutub. Ali təhsil aldıqdan sonra rayon mədəniyyət evinin baş metodisti vəzifəsində çalışıb. "Gənclik" mədəniyyət mərkəzi yaradıb. Bu mərkəzin nəzdində kukla teatrı fəaliyyət göstərib. Bakı İncəsənət mərkəzinin Muğan- Aran zonasının regional şöbəsi üzrə filialını açıb. Ötən illər ərzində filialın əməkdaşları yüzdən artıq memarlıq nümunələrinin, şəhid abidələrinin müəllifi olublar.

2002-ci ildən Neftçala rayon uşaq musiqi məktəbinin direktorudur. Bir il sonra bu məktəb uşaq incəsənət məktəbinə çevrilib.

- Məktəbin nailiyyətləri çox olub. Rayon və respublika əhəmiyyətli festival və müsabiqələrdə fəal iştirak edib. Çoxlu sayda diplom və fəxri fərmana layiq görülüb, mükafatlar alıb.

Məktəb 1956-cı ildə yaradılıb. O vaxt Salyanın filialı kimi fəaliyyət göstərib. Cəmi 1 müəllimi və 4 nəfər şagirdi olub. Əlisahib müəllim bu barədə deyir:

- Hazırda məktəbimizdə 392 nəfər uşaq oxuyur. Onların təlim-tərbiyəsi ilə 54 nəfər müəllim məşğul olur. Məktəb 30 sinif və əlavə yardımçı otaqlardan ibarətdir. Bakı İncəsənət Mərkəzinin Neftçala filialında çalışmağımın ümumi işimizə böyük köməyi var. Belə ki, rəssamlarımız filialın emalatxanalarından istifadə edir, onların imkanlarından maksimum dərəcədə yararlanmağa çalışırlar. Oradan yardımçı 3 otaq da almışdıq ki, filialın ümumi işinə maneçilik törətməyək.

Qazanılmış uğurlarda qabaqcıl müəllimlərdən Əli Ağayevin (tar), Afət Salamovanın (fortepiano), Tükəzban Mehdiyevanın (fortepiano şöbəsinin müdiri), Firuz Babaşovun (qarmon), İlqar Həsənovun (tar), Rza Rzayevin (qarmon), Dadaş Dadaşovun (təsviri sənət), Alimə Məmmədovanın(fortepiano) və Şəfayət Talıbovun (qarmon) adlarını çəkmək istərdim.

**Biz rayonun bütün tədbirlərində yaxından iştirak edir, mədəniyyətimizin inkişafı və təbliği, istedadların aşkara çıxarılması məqsədilə bütün imkan və bacarığımızdan maksimum dərəcədə yararlanmağa səy göstəririk. Düşünürəm ki, kollektivimiz əsil sözünü hələ bundan sonra deyəcək.**

**Rafael ETULLAYEV**